Olqa Aleksandrovna Anufriyeva 1978-ci ildə Belarus SSR-in Vitebsk vilayəti, Toloçin rayonunun şəhər tipli Koxanovo qəsəbəsində anadan olub.

2000-ci ildə Y.Kupalı adına Qrodno Dövlət Universitetinin Belarus dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə bitirib. Müəllim, metodist, daha sonra isə jurnalist kimi fəaliyyət göstərib. İlk məqalələri universitetin tələbə qəzetində dərc olunub. 2006-cı ildən etibarən peşəkar jurnalistika ilə məşğul olmağa başlayıb və respublika səviyyəli "Беларускі Час" nəşrinin Qrodno vilayəti üzrə xüsusi müxbiri olub. Daha sonra şəhər, vilayət və respublika səviyyəli mətbu orqanlarında müxtəlif rəhbər vəzifələrdə çalışıb. Belə ki, 2017-2018-ci illərdə "Вечерний Гродно" qəzetinin redaksiya direktoru və baş redaktoru, 2022-ci ildən 2024-cü ilin dekabrına qədər isə "Рэспубліка" qəzetinin redaksiyasına rəhbərlik edib. Eyni zamanda Qrodno Şəhər Deputatlar Şurasının 28-ci çağırış deputatı olub.

2024-cü ilin dekabr ayında Belarus Respublikasının Prezidenti Olqa Anufriyevanın "Звязда" Redaksiya-Nəşriyyat Müəssisəsinin direktoru və baş redaktoru vəzifəsinə təyin edilməsini təsdiq edib. Hazırda müəssisə tərkibinə ictimai-siyasi "Звязда" qəzeti, belarusca həftəlik ədəbi qəzet "ЛіМ", habelə "Родная прырода", "Алеся" və "Беларусь. Беларус" jurnalları daxildir.

"Звязда" qəzeti Nəşriyyat Evinin əsas mətbu orqanıdır. 1917-ci ilin avqust ayından nəşr olunur və Belarusun ən qədim qəzetidir. Bu, ölkədə yalnız Belarus dilində yayımlanan yeganə gündəlik qəzetdir. Qəzetin təsisçiləri Respublikalar Şurası, Milli Məclisin Nümayəndələr Palatası və Nazirlər Şurasıdır.

"Звязда" Nəşriyyat Evi, həmçinin sosial əhəmiyyətli ədəbiyyat nəşr edir.

Bura Belarus dilində uşaq ədəbiyyatı, regionşünaslıq və bədii ədəbiyyat kitabları daxildir. Xüsusilə vurğulamaq lazımdır ki, Nəşriyyat Evi tərəfindən Leyla Əliyevanın "Yarpaq" adlı şeirlər kitabı, Çingiz Əlioğlunun "Знічкай цябе я пакіну" kitabı və digər müəlliflərin əsərləri çap edilib.

8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində Olqa Aleksandrova ilə müsahibəni oxucularımıza təqdim edirik.

"Звязда" Nəşriyyat Evinin direktoru - baş redaktoru Olqa ANUFRİYEVA:

"Bəşəriyyətin tarixində heç bir qadın dağıdıcı müharibələrə başlamayıb..."

Məhz qadınların bu keyfiyyətləri həyatın onların qarşısına çıxardığı çağırışlarla uğurla davranmasına imkan verir

—Olqa Aleksandrovna, ölkələrimiz arasında mədəni və humanitar əməkdaşlığı necə qiymətləndirirsiniz? Nəşriyyat işi və jurnalistika sahəsində Azərbaycan və Belarusun birgə layihələrindən hansıları daha perspektivli hesab edirsiniz?

- Qeyd etmək istəyirəm ki, səmərəli mədəni və humanitar əməkdaşlıq yalnız möhkəm təməl üzərində qurula bilər. Belarus-Azərbaycan münasibətləri uzun illər boyu formalaşmış liderlərarası əlaqələrə söykənir. Məhz prezidentlər Aleksandr Lukaşenko və İlham Əliyev arasında şəxsi etimad və səmimi münasibətlər ikitərəfli əlaqələrdə əsas rol oynayır. Yüksək səviyyəli səfərlər, imzalanmış çoxsaylı sazişlər və beynəlxalq platformalarda fəal qarşılıqlı əlaqələr bu dostluğun dərinliyini və dayanıqlılığını vurğulayır və göstərir ki, sıx əməkdaşlıq və strateji tərəfdaşlıq təkcə ikitərəfli deyil, həm də regional müstəvidə sabitliyə və rifaha töhfə verə bilər.

Belarus tərəfindən ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Şuraya baş nazirin müavini rəhbərlik edir. O, hökumətdə sosial bloka məsul şəxs kimi əməkdaşlıq istiqamətinin inkişafına, ikitərəfli münasibətlərin əsas sütunlarını formalaşdıran digər sahələrə xüsusi maraq göstərir. Ölkələrimiz arasında Parlamentlərarası əməkdaşlıq da fəal inkişaf edir. Milli Məclisin və Belarus parlamentinin nümayəndə heyətləri mütəmadi olaraq qarşılıqlı səfərlər edirlər. Bu yaxınlarda Belarus Respublikası Şurasının sədri Nataliya Koçanovanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıya səfər edib və burada ikitərəfli gündəliyin aktual məsələləri müzakirə olunub.

Nəşriyyat fəaliyyəti sahəsində Belarus və Azərbaycanın birgə layihələrinə gəldikdə, rəhbərlik etdiyim "Звязда" Nəşriyyat Evi tərəfindən həyata keçirilən bir neçə mühüm layihəni qeyd etməliyəm. Belə ki, MDB ölkələrinin şair və yazıçılarının əsasən postsovet dövründə yazılmış ən yaxşı əsərlərini oxuculara tanıtmağı hədəfləyən "Созвучие сердец" seriyası çərçivəsində "Счастливая встреча" kitabı nəşr olunub. Bu nəşrə Belarus və Azərbaycan yazıçılarının şeirləri və hekayələri daxil edilib.

Bundan əlavə, Nəşriyyat Evimizdə tanınmış azərbaycanlı şair, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, onlarla poeziya toplusunun müəllifi Çingiz Əlioğlunun "Знічкай цябе я пакіну" adlı kitabı çap edilib. Çingiz Əlioğlu tez-tez Belarusa səfər edir və Belarus Ədəbiyyatı Günü və Minsk Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində keçirilən beynəlxalq dəyirmi masaların ən fəal iştirakçılarındandır.



Azərbaycan Dövlət Tərcümə Mərkəzinin dəstəyi sayəsində "Звязда" Nəşriyyat Evində vaxtilə Belarus dilində iki kitab nəşr olunub:

Birincisi "Müasir Azərbaycan ədəbiyyatı antologiyası"dır. Bu toplu ilk səhifələrindən etibarən oxucunu yalnız həqiqi poeziyanın alovu ilə deyil, həm də onun yaradıcılarının adları ilə valeh edir. Kitabda müxtəlif nəsillərin şairləri yer alıb.

İkinci kitab Leyla Əliyevanın "Лист" (Yarpaq) kitabıdır. Gənc Azərbaycan şairəsi Leyla Əliyevanın kitabında bu gün populyar olan "söz oyunları"na yer verilmir. O, zaman, vətən, duyğular və insanlar haqqında hiss etdiyi kimi yazır. Lakin özünü və dünyanı dərk etməyə çalışarkən o, oxucuya öz baxışlarını təlqin etmir, əksinə, səmimi şəkildə xeyirxahlığa dəvət edir. Tatiana Siveçin Belarus dilinə tərcüməsində bir qadının səsi eşidilir, bu qadın üçün ən başlıcası sevmək və inanmaqdır.

Həmçinin "Звязда" Nəşriyyat Evinə daxil olan "Література і мастацтва" (Ədəbiyyat və İncəsənət) həftəlik qəzetinin səhifələrində Azərbaycan yazıçılarının əsərləri dəfələrlə dərc olunub. Kamran Nazirlinin Dmitri Radionçik tərəfindən Belarus dilinə tərcümə edilmiş "Ağ kölgə" adlı hekayəsi, Fərid Hüseynin Mariya Kobets tərəfindən tərcümə olunmuş şeirləri, həmçinin Oqtay Rzanın Lyudmila Kebiç tərəfindən Belarus dilinə tərcümə edilmiş poeziya seçmələri qəzetdə işıq üzü görüb. Bundan başqa, Azərbaycan ədəbiyyatına həsr olunmuş materiallar müntəzəm olaraq dərc edilir.

—Sizcə, xalqlar arasında dialoqun qurulmasında qadın jurnalistlərin rolu nədən ibarətdir?

- İlk növbədə qeyd etmək istəyirəm ki, ölkəmizdə gender bərabərliyi sadəcə söz olaraq deyil, real bir anlayış kimi qəbul edilir: qadınlar dövlət idarəçiliyi sistemində mühüm vəzifələr tutur, qanunvericilik hakimiyyətində geniş təmsil olunurlar, bir sözlə, kişilərlə yanaşı, karyera qurmaq imkanına sahibdirlər. Məhz bu amil sayəsində əvvəllər yalnız kişilərin üstünlük təşkil etdiyi peşələrdə qadınların sayı artmağa başlayıb. Bu tendensiya Belarus jurnalistikasında da özünü göstərir, getdikcə daha çox gənc qadın öz peşəkar gələcəyini jurnalistika sahəsində qurmaq istəyir.

Xalqlar arasında dialoq qurulması məsələsində gender məhdudiyyətləri görmürəm. Fikrimcə məsələnin əsas məğzi münasibətlərin qurulmasına olan maraqdır. Bəli, ola bilsin ki, qadınlar müəyyən təbii xüsusiyyətlərinə - daha yüksək kommunikativ bacarıq və empatiyaya meyilli olduqlarına görə mədəniyyətlərarası dialoqu daha asan qura bilirlər. Lakin redaksiyalarımız arasında dostluq münasibətlərinin formalaşmasında gender prinsipinin heç bir rolu olmayıb.

—"Звязда" Nəşriyyat Evinin əsas fəaliyyət istiqamətləri hansılardır? Belarus ədəbiyyatına ölkə hüdudlarından kənarda nə dərəcədə maraq var və Azərbaycan da daxil olmaqla beynəlxalq əməkdaşlığı genişləndirmək planlarınız varmı?

- "Звязда" Nəşriyyat Evi ilk növbədə dövri nəşrlərin çapı funksiyasını yerinə yetirir. Bunlara gündəlik "Звязда" qəzeti, həftəlik "Література і мастацтва" qəzeti, habelə "Родная прырода", "Алеся", "Беларус" aylıq jurnallar daxildir. Bundan əlavə, Nəşriyyat Evinin tərkibində real vaxt rejimində ölkədə və onun hüdudlarından kənarda baş verən hadisələr barədə məlumat verən *zviazda.by* onlayn platforması fəaliyyət göstərir. Bu platformada Belarus dilini bilməyən xarici oxucular üçün rus və ingilis dillərində versiyalar da mövcuddur.

Nəşriyyat Evinin ikinci fəaliyyət istiqaməti - yuxarıda sadalanan nəşrlərdən də göründüyü kimi, kitab məhsullarının buraxılışıdır və bu məhsullar yalnız Belarus oxucuları üçün deyil, beynəlxalq auditoriya üçün də maraqlıdır. Təcrübəmizdən deyə bilərəm ki, ingilis və Çin dillərində kitablarımız mövcuddur. Bundan əlavə, ölkədən kənarda nəşrlərimizi əldə etmək mümkündür - məsələn, Wildberries internet-mağazasında satışa çıxarılmışdır.

Beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı planlara gəlincə, qeyd etmək istəyirəm ki, indiyədək qurulmuş əməkdaşlıq özünü yalnız müsbət tərəfdən sübut edib və biz bununla kifayətlənmək niyyətində deyilik. Biz ölkələrimiz və xalqlarımızın rifahı naminə birgə nəşriyyat layihələrini bundan sonra da həyata keçirməyə hazırıq.

—Sizcə müasir dünyada, xüsusilə KİV və nəşriyyat sahəsində qadının rolu necə dəyişib? Jurnalistika və kitab nəşri sahəsində qadın liderin bugünkü çağırışlarla uğurla mübarizə aparması üçün hansı keyfiyyətlərə sahib olması vacibdir?

- Qadınlar şübhəsiz ki, daha da fəal olublar. Biz təkcə həyat yoldaşı, ana və ailənin qoruyucusu deyil, həm də cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edən şəxslərik: cəmiyyətdə mühüm mövqe tutur, peşəkar inkişafda uğurlar qazanır, karyera qurur və eyni zamanda qadınlığımızı, zərifliyimizi qoruyub saxlayırıq. Mən deyərdim ki, "yumşaq güc" mövqeyindən çıxış edərək həyatın qarşımıza çıxardığı çətin məsələləri həll etməyi bacarırıq.

Eyni vəziyyət şübhəsiz ki, jurnalistika və kitab nəşri sahəsinə də aiddir - zahiri qadın zərifliyini üstünlüyə çevirmək, təbii diplomatiya sayəsində bəzən olduqca mürəkkəb problemləri sakit və ölçülüb-biçilmiş şəkildə həll etmək bacarığı mühüm amillərdəndir. Qadın mahiyyət etibarilə yaradıcıdır - o, dağıdıcılığa və münaqişələrə meyilli deyil, çünki onun təbiətində nəsil davamlılığı, həyatın qorunması və dolayısı ilə kompromisli həll yollarının axtarışı proqramlaşdırılıb. Bəşəriyyətin tarixində heç bir qadın dağıdıcı müharibələrə başlamayıb. Məhz bu keyfiyyətlər biz qadınlara həyatın qarşımıza çıxardığı istənilən çağırışlarla uğurla mübarizə aparmağa imkan verir.

—Olqa Aleksandrovna, müsahibəyə görə Sizə təşəkkür edirik. Qəzetimizin redaksiyası Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, möhkəm cansağlığı, çətin, lakin çox vacib işinizdə uğurlar arzulayır.

- Çox sağ olun.

Müsahibəni apardı:
Emin QASIMOV,
"Respublika".